# Təhsil-mədəniyyətin inkişafının göstəricisi kimi

Təhsil - mədəniyyətin inkişafının göstəricisi kimi müasir Azərbaycan mədəniyyətinin mühüm sahələrindən biri olan təhsil özünün inkişaf tendensiyasına görə özünəxas cəhətlərlə səciyyələnir. Cəmiyyətin qlobal məsələlərindən sayılan təhsil mədəniyyətin bütün digər sahələri üçün həlledici rol oynayır. Çünki cəmiyyət və mədəniyyətin inkişafı təhsil sisteminin düzgün təşkili prosesindən keçir.

Qədəm qoyduğumuz yeni minilliyin ilk əsrinin - XXI əsrin tarixə YUNESKO-nun qərarı ilə "Təhsil əsri" kimi daxil olması dünyada gedən qloballaşma prosesinin prioritetlərindən biri olmaqla, həm də bütünlükdə böyük bir mədəni hadisədir.

Mənəvi mədəniyyətin mühüm tərkib hissəsi sayılan təhsilin müasir tarixi şəraitdəki statusu əvvəlki tarixi dövrlərdən daha önəmli bir yer tutmaqdadır.

Təhsil məsələləri Azərbaycan elmində daha çox tədqiqata cəlb olunan problemlərdəndir. Xüsusilə, tarixşünaslıq, pedaqogika elmləri üzrə məşğul olan tədqiqatçılar Azərbaycanda təhsil məsələləri ilə bağlı bir çox elmi-tədqiqat işləri, monoqrafiya dərsliklər hazırlamışlar. Bu sahədə xüsusi xidməti olan alimlərdən M. M. Mehdizadə, H. M. Əhmədov, H. N. Əhmədov, T. F. İsgəndərov və digərlərinin adlarını çəkmək olar ki, bu müəlliflər ölkəmizdə təhsil sisteminin təşəkkül tarixi, inkişafı, onun məzmununun səciyyəvi xüsusiyyətlərinin tədqiqinə başlıca yer vermişlər. Lakin bu tədqiqatlarda təhsil mədəni fenomen kimi tədqiq olunmasa da, problemin kulturoloji aspektinin tədqiqi üçün əhəmiyyət kəsb edir. Təkcə onu qeyd etmək kifayətdir ki, tarixin inkişaf yollarında təhsil Azərbaycan mədəniyyətinin formalaşması və inkişaf etməsi üçün mühüm tarixi zərurətə çevrilir.

Azərbaycan mədəniyyəti çərçivəsində təhsilin dərki bütün cəhətləri, səviyyələri ilə bütöv, kamil sistem formasında başa düşülməlidir. Məhz buna görə də, XX əsri Azərbaycan təhsilindəki təkmilləşmə prosesləri, elə mədəniyyətin təkamülünün istiqamətlərindən biri özü kimi də qiymətləndirilməlidir. Ötən əsrin 30, 60, 80-ci illərində aparılan təhsil islahatları sovet quruculuğunun mədəni tədbirləri statusunda dərk olunurdu. İctimai və sosial tələblərdən irəli gələrək bu islahatların gerçəkləşdirilməsinin digər mühüm səbəbi dünyada "sovet mədəniyyəti" çərçivəsində bənzəri olmayan təhsil sistemini nümayiş etdirmək idi. Qeyd etmək vacibdir ki, sovet hökuməti bu məsləkinə doğrudan da nail olmuşdur. Təhsilin bütün səviyyələrində bu "bənzərsizlikdən" indi də azad olmaq o qədər də asan deyildir. Bunu hazırda Azərbaycan Respublikasında sürətlə gedən təhsil islahatları prosesi də sübut edir.

Respublikada bu islahatların zərurəti ölkədə müstəqil, suveren dövlətçiliyin qurulması və dünya mədəniyyətinə inteqrasiya üçün şəraitin yaranması oldu. Artıq XX əsrin 90-cı illərinin ortalarından vüsət götürmüş yeni Təhsil islahatları öz mahiyyət, məzmununa görə dünyəvi, bəşəri standartlara tam cavab verir. Bu islahatların mədəni hadisə kimi gedişi üç mühüm mərhələ ilə xarakterizə edilir. Mərhələlərin şərti olaraq dövrləşməsini zəruri edən ən vacib amilləri aşağıdakılar hesab etmək olar:

- respublikadakı daxili sosial-siyasi vəziyyət;
- ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişi, mədəniyyət və təhsil sahəsində düzgün, bəşəri prinsiplərə əsaslanan siyasətin əsasının qoyulması;
- dünyada təhsil problemlərinə marağın güclədirilməsi nəticəsində XXI əsrin "Təhsil əsri" kimi yeni minilliyə qədəm qoyması.

Hazırda müasir Azərbaycan mədəniyyəti tarixində əhəmiyyətli addım kimi qiymətləndirilən təhsil islahatlarının əvvəlkilərdən əsaslı fərqi özündə həm mili, həm də bəşəri, sivill dəyər və prinsiplərin vəhdətdə götürülməsi amili ilə izah edilir. Azərbaycan xalqının yüksək mentalitet, əxlaqi adət-ənənələri, milli şüuru, baxışlar sisteminə söykənən, həm də dünyəvi biliklərin qovuşuq halda təhsilin məzmununda öz əksini tapması mədəniyyətin sivil qaydada təkmilləşməsi üçün ən müasir üsullardan biridir. Təhsil islahatlarının sivil qaydada aparılmasının digər mühüm vacib amillərindən birini də dünyanın bu sahədə aparıcı, həmin işə maraq göstərən beynəlxalq dairələrin cəlbi və onların köməkliyi ilə müvəffəqiyyət əmsalının yüksəldilməsidir. Bu faktın özü isə, təhsil yolu ilə Azərbaycan mədəniyyətinin bəşər mədəniyyətinə inteqrasiyasının təminatçısına çevrilməsidir.

Mədəni inteqrasiya indiyədək Azərbaycan mədəniyyəti üçün yeni olan qeyri-dövlət təhsilin (özəl) inkişafı üçün də başlıca səbəb oldu. Hazırda bu sahədə respublikada qazanılan uğurlar Azərbaycan mədəniyyətinin dünya mədəniyyətinə qovuşmasında çevik oynayan amillərdən birinə çevrilir.

Mədəniyyət sistemində təhsilin rolu, həm də digər cəhətləri ilə səciyyələndirilir. Təhsil mənəvi mədəniyyətin ən aparıcı tərkib hissələrindən biri olmaqla, həm də mədəniyyətin yayılması sahələrindəndir. Hər kəs, məhz hər şeydən əvvəl, təhsil vasitəsilə mədəni dəyərlərə yiyələnir, mədəniyyətin tarixi ilə tanış olur, ayrı-ayrı millət və xalqların mədəni sərvətləri haqqında bilikləri mənimsəyirlər. İlk növbədə adi görünən bu cəhətlər çox mühüm bir elmi nəticənin sadə təriflə aşağıdakı kimi ifadə olunmasına əsas verir: təhsil ən böyük mədəniyyətdir!

**Həmidə Məmmədova**